# Medalın o biri üzündəki uğur formulu

**İdman hər bir ölkənin sosial birliyini, gənclərin düzgün tərbiyəsini və beynəlxalq nüfuzunu formalaşdıran güclü vasitələrdən biridir. Müstəqilliyini bərpa edən Azərbaycan üçün bu sahənin əhəmiyyəti yalnız medallarla ölçülmür. Bu, milli birliyin, dövlət rəmzlərinin, mədəniyyətin və tarixi dəyərlərin tanıdılmasında əsas alətlərdən birinə çevrildi. Lakin 1990-cı illərin mürəkkəb reallığında bu sahənin inkişafı strateji siyasi iradə ilə mümkün idi.**

28 il öncə, 1997-ci il iyulun 31-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Milli Olimpiya Komitəsinin (MOK) növbəti Baş Məclisi keçirildi. Həmin gün komitənin yeni idarə heyəti müəyyənləşdirildi və cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Bu, Azərbaycan idmanına yeni nəfəs gətirəcək və ölkəni beynəlxalq idman aləmində tanıdacaq prosesin başlanğıcı idi. Bu kritik dövrdə dövlətin prioritet istiqamətləri sırasında idmanın inkişafı strateji əhəmiyyət kəsb edirdi. Çünki gənclərin sağlam ruhda böyüməsi, ölkəmizi beynəlxalq arenada tanıdacaq güclü idmançıların yetişdirilməsi və xalqın ruh yüksəkliyinin təmin olunması üçün bu sahədə ciddi islahatlar aparılmalıydı. Belə bir zamanda Milli Olimpiya Komitəsinin rəhbərliyinə cənab İlham Əliyev kimi intellektual, milli maraqlara bağlı, idarəçilik bacarığı yüksək olan liderin seçilməsi həm siyasi, həm də tarixi baxımdan zərurət idi. Bu, əslində, dövlət siyasətində idmanın önə çıxarılmasının başlanğıc nöqtəsi oldu. 1997-ci ildən etibarən Azərbaycan idmanı tamamilə yeni trayektoriyaya keçdi, idman milli və dövlət maraqlarının müdafiə platformasına çevrildi. Dövlət siyasətində idman xüsusi prioritet kimi qəbul edildi. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün bölgələrində idman komplekslərinin tikintisi, olimpiya mərkəzlərinin yaradılması, gənclərin və uşaqların idmana cəlb edilməsi kimi genişmiqyaslı işlərə start verildi.

Həmin dövrdən etibarən Azərbaycan idmançılarının beynəlxalq arenada qazandıqları uğurlar da artmağa başladı. Olimpiya oyunlarında iştirak edən idmançılarımızın sayında və medal göstəricilərində davamlı artım müşahidə olundu. Atletlərimiz Yay Olimpiya Oyunlarında möhtəşəm və tarixi zəfərlərə imza atdılar. 1996-cı ildə ABŞ-ın Atlanta şəhərində keçirilən Olimpiya Oyunlarında Azərbaycan 23 idmançı ilə təmsil olundu. Güləşçi Namiq Abdullayevin qazandığı gümüş medal sayəsində ölkəmiz ümumi sıralamada 61-ci yerdə qərarlaşdı. 2000-ci ildə Avstraliyanın Sidney şəhərində baş tutan Oyunlara 31 idmançı ilə qatılan milli komandamız 2 qızıl və 1 bürünc medal qazandı. Stend atıcılığı üzrə Zemfira Meftahəddinova və sərbəst güləşçi Namiq Abdullayev qızıl, boksçu Vüqar Ələkbərov isə bürünc medala layiq görüldülər. Bu nəticə ilə ölkəmiz dünyada 34-cü, Avropa ölkələri arasında isə 23-cü sırada qərar tutdu. 2004-cü ildə Yunanıstanın Afina şəhərində keçirilən Yay Olimpiya Oyunlarında ölkəmiz 12 idman növü üzrə 38 idmançı ilə iştirak etdi. Bu yarışlarda ölkəmiz 1 qızıl və 4 bürünc medal qazandı. Qızıl medalı yunan-Roma güləşi üzrə Fərid Mansurov qazandı. Atıcılıq üzrə İradə Aşumova və Zemfira Meftahəddinova, boksçular Ağası Məmmədov və Fuad Aslanov isə bürünc medallara sahib oldular. 2008-ci ildə Pekində keçirilən Olimpiadada komandamız 44 atletlə təmsil olundu. Bu dəfə Azərbaycan komandası 1 qızıl, 1 gümüş və 4 bürünc olmaqla 6 medal qazandı. Cüdoçumuz Elnur Məmmədli qızıl, Rövşən Bayramov gümüş medala layiq görüldü. Bürünc medalları isə Xetaq Qazyumov, Mariya Stadnik, Şahin İmranov və Mövlud Mirəliyev əldə etdilər. 2012-ci ildə London Olimpiadasında Azərbaycan idmançıları 2 qızıl, 2 gümüş və 5 bürünc medal olmaqla ümumilikdə 9 medal qazandılar. Qızıl medallar Toğrul Əsgərov və Şərif Şərifova, gümüş medallar Rövşən Bayramov və Mariya Stadnikə, bürünc medallar isə Emin Əhmədov, Yuliya Ratkeviç, Xetaq Qazyumov, Teymur Məmmədov və Məhəmmədrəsul Məcidova məxsus oldu. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən Olimpiadada Azərbaycan tarixində ilk dəfə olaraq rekord sayda - 18 medal qazanıldı. Bu medalların 1-i qızıl, 7-si gümüş, 10-u isə bürünc idi. Güləşçilərimiz, taekvondoçular, cüdoçular, boksçular, avarçəkənlər bu nailiyyətə töhfə verdilər. Radik İsayev ölkəmizə yeganə qızıl medalı qazandırdı. Boksçu Lorenzo Sotomayor, cüdoçular Rüstəm Orucov və Elmar Qasımov, güləşçilər Mariya Stadnik, Toğrul Əsgərov, Xetaq Qazyumov, digərləri isə gümüş və bürünc medallar qazandılar. Pandemiya səbəbindən 2021-ci ilə keçirilən "Tokio-2020" Olimpiya Oyunlarında Azərbaycan 3 gümüş və 4 bürünc medal qazandı. Rafael Ağayev və İrina Zaretska karate üzrə finala yüksələrək gümüş medalla kifayətləndilər. Hacı Əliyev (güləş), Rafiq Hüseynov və Mariya Stadnik (güləş), İrina Kindzerska (cüdo) və Alfonso Dominqes (boks) isə bürünc medallar qazandılar. Nəhayət, 2024-cü ildə Fransanın paytaxtı Parisdə keçirilən Olimpiya Oyunlarında Azərbaycan 48 idmançı ilə təmsil olundu və bu yarışları 2 qızıl, 2 gümüş və 3 bürünc medalla tamamladı. Cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev qızıl, boksçu Loren Alfonso Dominqes və taekvondoçu Qaşım Maqomedov gümüş, güləşçilər Həsrət Cəfərov, Giorgi Meşvildişvili və Maqomedxan Maqomedov isə bürünc medallara layiq görüldülər.

Eyni zamanda, bu illər ərzində ölkəmiz dünyanın idman mərkəzlərindən birinə çevrildi. 2015-ci ildə keçirilən I Avropa Oyunları ilə Azərbaycan bu sahədə möhtəşəm irəliləyişə imza atdı. İki ildən artıq davam edən hazırlıq mərhələsindən sonra Azərbaycan bu mötəbər tədbiri uğurla keçirərək təkcə ölkəmizin deyil, bütövlükdə Avropanın idman tarixinə mühüm töhfə verdi. Çünki indiyədək yalnız Avropa ölkələrinin iştirak etdiyi bu miqyasda idman tədbiri keçirilməmişdi. İlk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar 2012-ci il dekabrın 8-də Romada, Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edildi. Səsvermədə iştirak edən 48 nümayəndədən 38-i Bakının lehinə səs verdi. Bu mühüm qərarın ardınca, Prezident İlham Əliyev 2013-cü il yanvarın 17-də "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, Təşkilat Komitəsinə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki, adətən belə oyunların təşkili üçün ölkələrə 7-8 illik hazırlıq müddəti verilir. Lakin Azərbaycan bu vəzifənin öhdəsindən cəmi iki il yarım ərzində uğurla gəldi. Daha öncə heç bir nümunə və ya təlimatın olmadığı bu yarış üçün bütün təşkilati, inzibati və texniki məsuliyyət ölkəmizin üzərinə düşürdü. Bu baxımdan hazırlıq işlərinin miqyası və tempi istənilən beynəlxalq standartı üstələdi. Mehriban Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində yarışların keçiriləcəyi idman obyektlərinin tikintisi və yenidən qurulması yüksək keyfiyyətlə, qısa müddətdə həyata keçirildi. Beş yeni müasir idman qurğusu - Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Velopark tikilərək istifadəyə verildi. Digər idman obyektləri isə əsaslı şəkildə yenilənərək müasir standartlara uyğunlaşdırıldı. Belə genişmiqyaslı və yüksək səviyyəli hazırlıq işlərinin bu qədər qısa müddətdə və böyük uğurla başa çatdırılması Azərbaycanın təşkilatçılıq bacarığını və potensialını bir daha sübut etdi. Yaradılan yeni infrastruktur və turnirin nümunəvi təşkili ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırdı. Şübhəsiz ki, bu uğurun arxasında Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın əvəzsiz rolu dayanırdı. Prezident İlham Əliyev dəfələrlə bu məqamı vurğulayaraq, oyunların təşkilində hər bir detalın yüksək dəqiqliklə və peşəkarlıqla icra olunduğunu qeyd etmişdi. I Avropa Oyunlarının təşkili sahəsindəki xidmətlərinə, eləcə də ölkənin mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında oynadığı fəal rola görə Mehriban Əliyeva dövlətimizin ən ali - "Heydər Əliyev" ordeni ilə təltif edildi.




Ötən il də Azərbaycan onlarla nüfuzlu beynəlxalq idman tədbirinə ev sahibliyi edib. Onların sırasında fevralın 7-11-də badminton üzrə beynəlxalq turnir, martın 7-10-da idman gimnastikası üzrə Dünya Kuboku, martın 29-31-də bədii gimnastika üzrə Avropa Kuboku, aprelin 4-7-də güləş üzrə Avropa Olimpiya lisenziya turniri, mayın 1-10-da "Baku Open 2024" beynəlxalq şahmat yarışları, mayın 5-8-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş avarçəkmə üzrə "Prezident Kuboku", sentyabrın 13-15-də Formula 1 Azərbaycan Qran-Prisi və oktyabrın 17-20-də keçirilən avarçəkmə üzrə "Mingəçevir reqatası" kimi mötəbər yarışlar yer alır. Məhz bu uğurların məntiqi nəticəsi kimi bu il fevralın 18-də cənab İlham Əliyev yenidən 4 il müddətinə Milli Olimpiya Komitəsinin (MOK) prezidenti seçilib. Bu, ölkəmizin idman sahəsindəki ardıcıl uğurlarını davam etdirmək və yeni mərhələyə keçmək əzminin bariz göstəricisidir. Ölkəmiz artıq gələcək perspektivlər üçün idman sahəsində strateji hədəflərini müəyyənləşdirir. Prezidentin təşəbbüsü əsasında 2021-ci il dekabrın 20-də Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Bədən Tərbiyəsi və İdman Şurasının növbədənkənar iclasında qəbul edilmiş qərara əsasən, III MDB Oyunlarının bu il Azərbaycanda keçirilməsi təsdiqlənib. Qərar ölkəmizin beynəlxalq idman mühitində artan nüfuzunun və təşkilati imkanlarının daha bir göstəricisidir. Digər tərəfdən, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası tərəfindən Bakı şəhərinin 2026-cı il üçün dünyanın rəsmi "İdman paytaxtı" elan edilməsi idman sahəsində qazanılan beynəlxalq etimadın yaxşı nümunəsidir. Federasiya tərəfindən göndərilən rəsmi məktubda Bakının bu yüksək statusa layiq görülməsi ayrıca vurğulanır.

Otən il dekabrın 24-də ilin idman yekunlarına həsr olunmuş təntənəli mərasim təşkil olunub. Tədbirin mühüm məqamlarından biri cənab İlham Əliyevin bu mərasimdə iştirakı olub. Dövlət başçısının məhz öz doğum günündə bu tədbirə qatılması təsadüfi deyildi. Bu, cənab Prezidentin idmana verdiyi strateji dəyərin və şəxsi diqqətin ifadəsidir. Prezident İlham Əliyev çıxışında Azərbaycan idmanının 2024-cü ildəki nailiyyətlərini geniş şəkildə təhlil edərək bildirib ki, 2024-cü il də əvvəlki illər kimi idmançılarımızın beynəlxalq yarışlarda böyük uğurlar qazandığı bir il olub: "Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir". Bu möhtəşəm rəqəm ölkəmizin idman sisteminin funksional olduğunu, idmançı hazırlığı sahəsində sistemli və davamlı işlərin görüldüyünü nümayiş etdirir. Burada həm dövlətin yaratdığı infrastrukturun, həm də federasiyaların və məşqçilərin peşəkarlığının əhəmiyyətli rolu var. Prezidentin tədbirdə iştirakı idman ictimaiyyətinin real dəstəkçisi olduğunu bir daha təsdiqlədi. Cənab İlham Əliyev hər zaman idmançıların zəhmətini yüksək qiymətləndirir, beynəlxalq arenalarda əldə etdikləri qələbələri Azərbaycanın imici üçün böyük töhfə kimi dəyərləndirir. Prezident İlham Əliyevin ötən il avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul etməsi də buna nümunədir. Prezident çıxışında təkcə cari ilin nəticələrini deyil, həm də idmanın regionlarda inkişafına dair strategiyanı da qeyd edib. Hazırda Azərbaycanın bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə müasir idman infrastrukturu qurulur. Ağdamda beynəlxalq standartlara cavab verən yeni stadionun tikilməsi bu sahədə görülən işlərin miqyasını əks etdirir. Füzuli və Suqovuşanda beynəlxalq səviyyəli yarışlar keçirilir. Bu, həm də azad olunmuş ərazilərdə həyatın normal ritminə qayıtdığını simvolizə edir. Şuşa və Xankəndi şəhərlərində də idman obyektləri yenidən qurulur. Bu obyektlər gələcəkdə gənc nəslin sağlam ruhda formalaşmasına, bölgədə idman ənənələrinin dirçəlməsinə və beynəlxalq yarışların keçirilməsinə zəmin yaradacaq. Azərbaycanın idman siyasəti təkcə medallarla ölçülmür. Bu, sağlam cəmiyyətin formalaşdırılması, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin imicinin möhkəmləndirilməsi məqsədlərinə xidmət edir.

Cənab İlham Əliyevin idman sahəsindəki xidmətləri təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də yüksək qiymətləndirilir və bu sahədə göstərdiyi təşəbbüslərə görə bir sıra nüfuzlu mükafatlara layiq görülüb. 2004-cü il aprelin 19-da Beynəlxalq Olimpiya Komitəsi tərəfindən cənab İlham Əliyevə "Olimpiya" ordeni təqdim olunub. Həmin il oktyabrın 10-da isə Dünya Taekvondo Federasiyası ona 6-cı Dan Qara kəməri və sertifikatı təqdim edərək idmançılara və bu sahəyə verdiyi dəstəyi yüksək qiymətləndirib. 2004-cü il aprelin 3-də Beynəlxalq Güləş Federasiyası (FİLA), mayın 1-də isə Avropa Həvəskar Boks Assosiasiyası tərəfindən xüsusi mükafatlarla təltif olunub. 2005-ci ildə cənab Prezident iki nüfuzlu beynəlxalq idman təşkilatı tərəfindən mükafatlandırılıb. Mayın 27-də Beynəlxalq Hərbi İdman Şurası Prezidentimizə "Böyük Kordon" Şərəf ordeni təqdim edib, sentyabrın 26-da isə MDB Ölkələri İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyası Fərqlənmə nişanı ilə təltif edib. 2007-ci ildə bu sahədə daha bir neçə yüksək mükafat təqdim olunub. Sentyabrın 17-də Beynəlxalq Güləş Federasiyası (FİLA) tərəfindən "İdman əfsanəsi" medalı verilib. Oktyabrın 26-da Belarus Milli Olimpiya Komitəsinin ali mükafatına layiq görülüb. Dekabrın 27-də isə Azərbaycan Milli Olimpiya Komitəsi cənab İlham Əliyevə "Olimpiya" ordenini təqdim edib. 2008-ci il martın 20-də Ümumdünya Karate Federasiyası tərəfindən cənab İlham Əliyevə Fəxri 9-cu Dan dərəcəsinin diplomu, 2009-cu il mayın 15-də Avropa Ədalətli Oyunlar Hərəkatı tərəfindən "Şərəf" nişanı, 2015-ci il iyunun 26-da isə Beynəlxalq Paralimpiya Komitəsinin ali paralimpiya mükafatı təqdim olunub. 2018-ci il aprelin 29-da Dünya Güləş Birliyi tərəfindən cənab İlham Əliyev bu sahədəki misilsiz töhfələrinə görə "Qızıl Orden" ali mükafatına layiq görülüb. Bu mükafatlar bir daha sübut edir ki, cənab İlham Əliyevin idmana verdiyi töhfələr beynəlxalq səviyyədə də nümunə kimi qəbul olunur və Azərbaycan idmanının dünya səviyyəsində tanınmasında onun rolu əvəzsizdir.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində formalaşan güclü idman infrastrukturu və təşkilati baza ölkəmizi qlobal idman xəritəsində aparıcı mərkəzlərdən birinə çevirib. Bakı və regionlarda inşa olunan müasir idman kompleksləri, beynəlxalq standartlara uyğunlaşdırılan obyektlər və yüksək səviyyədə keçirilən yarışlar sayəsində Azərbaycan artıq təkcə idman nailiyyətləri ilə deyil, həm də mötəbər tədbirlərin etibarlı ev sahibi kimi tanınır. Bu nüfuz ölkəmizin beynəlxalq imicinə mühüm töhfə verir və idman diplomatiyasını strateji üstünlüyə çevirir.

**Tacir SADIQOV,**
**"Respublika".**